# Azərbaycan səninlədir, qardaş Türkiyə!









## “Zəlzələ ağrıları bizə də üzüntü yaşadır”

**Səhərdən göydə uçuşan və gözlə güclə sezilən qar dənəciklərini güclü külək buraya gələnlərin üzünə çırpmaqla sərt üzünü göstərmək istəyir. Türkiyənin ölkəmizdəki səfirliyinin önündə isə elə bil həyat dayanıb, burada nə şaxta, nə qar, nə də tüğyan edən külək hiss olunmur. Dünyanı lərzəyə salan dəhşətli fəlakətin səbəb olduğu ağır insan itkisindən sarsılan insanlar dərin hüzn və böyük kədərlə zəlzələ qurbanlarının xatirəsini anırlar – sakit, lal, dinməz...**




Bapbalaca bir qız atasından qabağa düşüb, “Ayı balası”nı ehtiyatla burada olan digər oyuncaqların yanına qoyur. Bu həyatı hələ dərk etməyə macal tapmamış əbədiyyətə qovuşan nağıl dünyasının balaca “mələk”ləri üçündür. İnsanlar bu səhnəni görməmək üçün nəzərlərini sonsuz-bucaqsız boşluğa zilləyirlər. Yaşlı bir türk qadının gözlərinin yaşını silərək “Allah çocuqları qorusun”, – sözləri hamını kövrəldir.

Səfirliyin önündə Azərbaycan və Türkiyə bayraqları ilə gələn könüllülər izdiham yaradırlar. Əsasən gənclərdən ibarət dəstələr zəlzələ qurbanlarının xatirəsini sükutla yad edir, səfirliyin önünə yeni əkliллər, güllər düzürlər.

Zəlzələ qurbanlarının xatirəsini yad etməyə gəlmiş miqrasiya könüllüsü **Natiqə Hüseynova** “Qardaş ölkədə baş verən dəhşətli zəlzələdə minlərlə insanın öz həyatını itirməsi böyük faciədir. On minlərlə insan ağır yaralanıb, soyuqda-şaxtada evsiz-eşiksiz qalıb. Onlara kömək etmək üçün bütün vasitələrdən istifadə etməliyik”, – deyir.

“Artıq bir neçə ildir ki, könüllülük fəaliyyəti ilə məşğuluq. İşimiz hələ bu qədər ağır və məsuliyyətli olmayıb. Bu acı xəbəri alan andan nəinki evdə rahat otura bilmirik, bir an belə olsun dəstək vermək öhdəliyimizi yaddan çıxarmırıq. Bu bizim, həm də türk qardaşlarımıza vəfa borcumuzdur”, – deyə əlavə edir.

**Könüllü gənc Nurlan Mövsümov** Türkiyədə baş verən dəhşətli fəlakətin nəticələrinin aradan qaldırılması, eyni zamanda, insanların sıxıntısını azaltmaq, onların yaranan çətinliklərin öhdəsindən gəlməsi üçün Azərbaycan könüllülərinin hərtərəfli kömək etdiklərini bildirir.

Qeyd edim ki, Azərbaycan qardaş ölkəyə ilk dəstək verən dövlət olub. Zəlzələdən dərhal sonra xilasedicilərimiz dağıntıların olduğu bölgəyə gediblər. Xalqımızın böyük fəallıqla davam etdirdiyi yardım kampaniyasında könüllülər əsl fədakarlıq nümayiş etdirirlər: “Çox təəssüf ki, qardaş ölkədə dağıntıların və insan itkisinin miqyası çox böyükdür. Türk xalqı böyük iradə nümayiş etdirərək bu faciənin öhdəsindən gəlməyə çalışır. Neçə can həyat və ölüm arasında çırpınır. Türk qardaşlarımızın yanındayıq. Lazım olarsa, zəlzələ baş verən bölgəyə gedib xilasedici missiyamızı orada davam etdirəcəyik”.

**Nərminə Məmmədova** havanın soyuq və şaxtalı olmasına baxmayaraq, könüllülərin yorulmadan çalışdıqlarını bildirir: “Ölkəmizdə qardaş Türkiyəyə yardım məqsədi ilə geniş aksiya və kampaniyalar davam edir. Könüllülər yardım məqsədilə gətirilən geyimlər və ərzaq məhsullarının təyin olunmuş məntəqələrdə toplanmasına böyük dəstək verirlər. Bu əşyaların çeşidlənərək qutulara yığılıb daşınmasında və maşınlara yüklənməsində yaxından iştirak edirlər.

Hər zaman Azərbaycanın yanında olan qardaş ölkənin bu gün sıxıntılar içərisində yaşaması bizi çox məyus edir. Təəssüf ki, getdikcə insan itkiləri çoxalır”.




Digər könüllü gənc **Fərhad İbadov** bildirir ki, könüllü gənclər yardımların edilməsi ilə yanaşı, təbliğat və maarifləndirmə işləri ilə də məşğul olurlar: “İstəyirik ki, Türkiyədə çətin vəziyyətdə olan insanlara vaxtında kömək edək. Şübhəsiz, onların arasında xəstələr, qoca və körpələr var. Onlar üçün zəruri olan isti geyim və digər əşyaların vaxtında toplanması, yola salınması çox vacibdir. O cümlədən tez bir zamanda maddi yardım, məişət əşyaları, yataq dəstlərinin çeşidlənərək ünvanlara çatdırılması böyük əhəmiyyət daşıyır. Bundan sonra da çətinliklə qarşılaşmış bacı-qardaşlarımıza yardım göstərilməsini davam edəcəyik”.

Artıq gecə düşməsinə baxmayaraq, Əl Oyunları Sarayında yardım gətirən insanların ardı-arası kəsilmir. Hamı eyni məqsəd üçün birləşib. Zəlzələdən zərər çəkənlərə lazım olan yardım – əsasən qış geyimləri, çətin vəziyyətdə olan insanlar üçün çadır, yataq dəstləri, təmizlik ləvazimatlarını bacardıqca ünvanlara tez çatdırmaq lazımdır.

Dostları ilə yardım kampaniyasında fəal iştirak edən **Vətən müharibəsi iştirakçısı Elman Rüstəmov** bu günlərin xalqlarımız üçün ciddi sınaq olduğunu bildirir: “Xalqlarımız ən ağır günlərdə bir-birinin yanında olublar. Azərbaycan-Türkiyə birliyi türk dünyası üçün böyük nümunədir. Vətən müharibəsinin ilk günlərindən sona qədər qardaş Türkiyənin Azərbaycanın yanında olması gücümüzə güc qatdı. Ən çətin vaxtlarda, ağır günlərdə, eyni zamanda, həm də xoş günlərimizdə xalqlarımız birlik nümayiş etdiriblər. Kədərimizi, sevincimizi bölüşmüşük. Bu gün qardaş xalqın matəm günləri bizə böyük acı yaşadır. Dayanmadan çalışırıq, daha çox yardımın ünvanlara çatdırılması üçün işləyirik. İnsan itkilərinin çox olması ürəyimizi sızıldadır”.

Türkiyəmizin bu günlər davam edən müsibəti xalqımızı qəm dəryasına qərq edib. Kədəriniz kədərimizdir, – deyirik, qardaşlarımız! Düşmən sevinməsin qoy! Məğrur türk xalqı bu gün ayaq üstədir, mübarizə aparır və həmişə olduğu kimi, yenə də çətinliklərin öhdəsindən gələcək!

*Leyla QURBANOVA,*
*E.AĞALAR (foto)*